AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THE SOUL-BODY PROBLEM: THE INCONSISTENT TETRAD AND ITS RESOLUTION IN SADR AL-DIN SHIRAZI'S PERSPECTIVE

**Ibrahim Baghirov**[1]

**UDC:** 111; 297.2
**LBC:** 87.1; 86.38
**HoS:** 54
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.126-136

**Keywords:**

Inconsistent tetrad, Mind-body problem, Mulla Sadra, Corporeal origination, Spiritual subsistence

## ABSTRACT

The "inconsistent tetrad" refers to the four propositions commonly used in the philosophy of mind to address the issue of the mind-body relation. As the name suggests, although each of these propositions may individually be true, only three of them can be true at the same time, while one must always be false. For instance: 1) The soul is a non-material substance; 2) The body is a material substance; 3) The soul and body are in relation to each other; 4) The relationship between material and non-material entities is impossible. Throughout the history of philosophy, different philosophers have provided various solutions to this problem. Dualists, who believe in the non-material nature of the soul, reject the fourth proposition, which denies the possibility of the relationship between material and non-material entities. In contrast, proponents of physicalist theories attempt to resolve the issue by materializing the soul.

This paper attempts to analyze the inconsistent tetrad from the perspective of the 17$^{th}$-century Safavid philosopher Sadr al-Din Shirazi. After explaining the nature of the inconsistent tetrad, the paper discusses Shirazi's concept of the soul. It then examines which propositions, from the perspective of his theory of the soul, are likely to be true and which are likely to be false. The conclusion emphasizes that, according to Shirazi's theory of the soul, which is "corporeal in its origination, but spiritual in subsistence," the soul and body represent the only ontological unity that evolves from matter to spirit. Unlike the dualist or physicalist viewpoints, the Shirazi perspective offers not a singular solution, but multiple possible solutions to this problem.

[1] Researcher and PhD student,
Institute of Oriental Studies named after academician Ziya Bunyadov of ANAS; Baku, Azerbaijan
E-mail: i.bagirov@oriental.science.az
https://orcid.org/0000-0002-2976-2119
**To cite this article:** Baghirov, I. [2025]. The Soul-Body Problem: The Inconsistent Tetrad and Its Resolution in Sadr al-Din Shirazi's Perspective. *History of Science journal*, *6*(1), pp.126-136.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.126-136

***Article history:***
*Received: 22.12.2024*
*Accepted: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# NƏFS-BƏDƏN PROBLEMİ: "TƏZADLI DÖRTLÜK" VƏ ONUN SƏDRƏDDİN ŞİRAZİ PERSPEKTİVİNDƏN HƏLLİ

**İbrahim Bağırov**[1]

**UOT:** 111; 297.2
**KBT:** 87.1; 86.38
**HoS:** 54
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.126-136

**Açar sözlər:**

Təzadlı dördlük, Ruh-bədən problemi, Molla Sadra, Cismani yaranış, Ruhani qalış.

## ANNOTASİYA

"Təzadlı dördlük" zehin fəlsəfəsində nəfs-bədən əlaqəsinin problematikası ilə bağlı adətən istifadə olunan dörd ziddiyyətli mülahizəni ifadə edir. Adından da göründüyü kimi, ayrı-ayrılıqda mülahizələrin hər birinin doğru olma ehtimalı olsa da eyni anda bu dörd mülahizədən ancaq üçü doğru ola bilər; mülahizələrdən hər hansı biri isə hər zaman yanlışdır. Məsələn: 1) nəfs qeyri-maddi substansiyadır; 2) bədən maddi substansiyadır; 3) nəfs və bədən bir-biri ilə münasibətdədir; 4) maddi və qeyri-maddi şeylərin münasibəti mümkün deyil. Fəlsəfə tarixində filosofların bu problemin həllinə dair cavabları fərqli şəkillərdə olmuşdur. Nəfsin qeyri-maddi olduğuna inanan dualistlər maddi və qeyri-maddi varlıqların əlaqəsini inkar edən dördüncü mülahizəni inkar etmələrinə qarşı fizikalist nəzəriyyə tərəfdarları nəfsi maddiləşdirərək problemdən çıxış yolu axtarmağa çalışıblar.

Bu məqalə sözügedən təzadlı dördlüyün XVII əsr Səfəvi dövrü filosofu Sədrəddin Şirazi fəlsəfəsi perspektivindən dəyərləndirilməsi cəhdidir. Məqalədə təzadlı dördlüyün mahiyyəti açıqlandıqdan sonra Şirazinin nəfs konsepsiyası haqqında məlumat verilir. Daha sonra isə onun nəfs anlayışı baxımından hansı mülahizələrin doğru, hansıların isə yanlış olma ehtimalı müəyyənləşdirilməyə çalışılır. Nəticə olaraq qeyd olunur ki, Şirazinin "yaradılışca cismani, qalışca ruhani" nəfs nəzəriyyəsi perspektivindən nəfs və bədən maddədən ruha təkamül edən yeganə ontoloji həqiqətdir. Bu baxımdan sözügedən problemin dualist və ya fizikalist dünyagörüşlərindən fərqli olaraq Şirazi perspektivindən konkret bir həll yolu yox fərqli həll yolları vardır.

[1] Dissertantı və elmi işçisi,
AMEA Şərqşünaslıq İnstitutu; Bakı, Azərbaycan
E-mail: i.bagirov@oriental.science.az
https://orcid.org/0000-0002-2976-2119
**Məqaləyə istinad:** Bağırov, İ. [2025]. Nəfs-bədən problemi: "təzadlı dörtlük" və onun Sədrəddin Şirazi perspektivindən həlli. *History of Science jurnalı, 6*(1), səh.126-136.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.126-136

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 22.12.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 24.01.2025*
*Çapa qəbul edilmişdir: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ПРОБЛЕМА ДУШИ И ТЕЛА: «ПРОТИВОРЕЧИВЫЙ КВАРТЕТ» И ЕГО РЕШЕНИЕ С ТОЧКИ ЗРЕНИЯ САДР АД-ДИНА ШИРАЗИ

**Ибрагим Багиров**[1]

**УДК:** 111; 297.2
**ББК:** 87.1; 86.38
**HoS:** 54
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.126-136

**Ключевые слова:**

Противоречивый квартет,
Проблема души и тела,
Мулла Садра,
Телесное происхождение,
Духовное существование

## АННОТАЦИЯ

«Противоречивый квартет» — это четыре утверждения, часто используемые в философии сознания для анализа проблемы взаимоотношения души и тела. Хотя каждое из этих утверждений может быть истинным само по себе, их одновременная истинность приводит к логическому противоречию. Например: (1) Душа является нематериальной субстанцией; (2) Тело является материальной субстанцией; (3) Душа и тело взаимодействуют; (4) Взаимодействие между материальными и нематериальными сущностями невозможно. Разные философы по-разному решали эту проблему. Дуалисты, утверждающие нематериальную природу души, отвергают четвертое утверждение, в то время как физикалисты стремятся решить проблему, отрицая нематериальность души.

Настоящая работа рассматривает «противоречивый квартет» с точки зрения философа XVII века Садр ад-Дина Ширази. Сначала анализируется структура квартета, затем излагается концепция души у Ширази и оценивается, какие из утверждений, согласно его теории, являются истинными, а какие ложными. В заключении подчеркивается, что, согласно воззрениям Ширази, душа «телесна в своем происхождении, но духовна в своем существовании», представляя собой единую онтологическую реальность, эволюционирующую от материи к духу. В отличие от дуалистических и физикалистских концепций, философия Ширази предлагает не одно, а несколько возможных решений данной проблемы.

[1] Научный сотрудник и диссертант,
Институт Востоковедения имени академика Зии Буниятова НАНА; Баку, Азербайджан
E-mail: i.bagirov@oriental.science.az
https://orcid.org/0000-0002-2976-2119
**Цитировать статью:** Багиров, И. [2025]. Проблема души и тела: «Противоречивый квартет» и его решение с точки зрения Садр ад-Дина Ширази. *Журнал History of Science, 6*(1), с.126-136.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.126-136

***История статьи:***
*Статья поступила в редакцию: 22.12.2024*
*Отправлена на доработку**:** 24.01.2025*
*Принята для печати: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## *1.Giriş*

Zehin fəlsəfəsinin mərkəzi problemlərindən biri olan nəfs-bədən (ruh-bədən) problemi, ruhun mahiyyəti və onun bədənlə əlaqəsi məsələlərini əhatə edir. Bu problemə dair ilkin müzakirələr qədim yunan filosoflarından başlayaraq müxtəlif dövrlərdə müxtəlif kontekstlərdə davam etdirilmişdir. Bugünkü yanaşmada əsasən zehin fəlsəfəsinin tədqiqat mövzusu kimi görünsə də, əslində bu, metafizik bir problemdir. Bundan əlavə, teoloji aspektlərə sahib olduğu üçün teoloqların, psixologiya və digər koqnitiv elm sahələrinin də maraq dairəsinə daxildir. Lakin bu məqalə çərçivəsində məsələ yalnız fəlsəfi perspektivdən təhlil ediləcəkdir.

Fəlsəfə tarixində nəfs-bədən problemi ilə bağlı iki əsas yanaşma – dualizm və monizm– formalaşmışdır. Dualizmə görə, nəfs maddi dünyadan kənar, qeyri-maddi bir substansiyadır və bədəndən tamamilə fərqli mahiyyətə malikdir. Monizm isə bunun əksinə olaraq, yalnız bir substansiyanın mövcud olduğunu iddia edir. Onun ən geniş yayılmış forması olan materializm (fizikalizm) bu substansiyanın maddi və fiziki olduğunu müdafiə edir. Daha az yayılmış neytral monizm isə nə ruhun, nə də maddənin fundamental olduğunu, hər ikisinin neytral bir substansiyadan əmələ gəldiyini irəli sürür. [Şirinov, 2012]

Bu nəzəriyyələrin hər biri üçün nəfs-bədən probleminin mövcud olması ilə yanaşı onun fəlsəfə tarixində müxtəlif dövrlərdə fərqli formalarda müzakirə edildiyi görünür. Məsələn, qədim və orta əsr filosofları əsasən ruhun maddəyə təsirini və onun bədənlə əlaqəsini metafizik və teoloji çərçivədə araşdırırdılar. Müasir fəlsəfədə isə bu problem, şüur və intensionallıq kimi fenomenlərin fiziki dünyada necə mümkün olduğu məsələsi ətrafında cəmlənmişdir. [Lagerlund, 2007]

Müasir fəlsəfədə əvvəllər olduğu qədər populyar olmayan dualizm orta əsr fəlsəfəsində ən geniş yayılmış nəzəriyyə idi. Məqalədə fikirlərini təhlil etdiyimiz Sədrəddin Şirazinin aid olduğu islam fəlsəfəsində də dualizmin əsas nəzəriyyə olduğunu qeyd edə bilərik. Maraqlıdır ki, nəfs-bədən münasibətinin məhz problem olaraq önə çıxması da dualizmə reaksiya olaraq baş vermişdir. Daha dəqiq desək fransız filosofu Rene Dekartın dualizminə qarşı. Rene Dekar substantiv dualizmin, yəni radikal dualizmin əsas tərəfdarlarından biri kimi tanınır. O, “Meditasiyalar”ında zehin fəlsəfəsinin fundamental sualları olan nəfsin mahiyyəti və onun bədən yaxud maddi aləmlə olan əlaqəsini araşdırmaq məqsədi ilə bu məsələyə dair öz nəzəriyyəsini irəli sürmüşdür. Dekartın yanaşmasına görə, nəfs yaxud zehin qeyri-maddi substansiya olub fiziki obyektlərə xas olan yer tutmaq xassəsindən məhrumdur və onun mahiyyəti düşüncədən ibarətdir. Bədənlər isə maddi varlıqlar olaraq məkanla əlaqəlidir və düşünmə qabiliyyətindən məhrumdurlar. [McCulloch, 1995] Yəni insanı təşkil edən nəfs və bədən bir-birindən fundamental şəkildə fərqli olan müstəqil varlıqlardır.

Dekart nəfsi məkanda yayılmayan qeyri-maddi substansiya, bədəni isə məkanla sıx bağlı maddi substansiya hesab etsə də, bu iki substansiyanın əlaqələnə bilməsini mümkün hesab edirdi. Onun fikrincə, məkanda olmayan bir substansiyanın məkanda olan bir varlıqla təsir bağlantısı qurması ziddiyyət təşkil etmir. Bu səbəbdən o, “Meditasiyalar”da nəfs-bədən münasibətini problem olaraq görmür. Lakin, dövrünün bəzi nüfuzlu simaları, o cümlədən Bohemiyalı Yelizaveta və Pier Gassendi, Dekartın nəfs və bədən nəzəriyyəsinin paradoksallıq daşıdığını irəli sürürdülər. [Westphal, 2016, s.16] Onlar bu fikirdə idilər ki, nəfs bədənlə əlaqə qura bilirsə, o zaman o da məkanda mövcud olmalı və bununla da qeyri-maddi deyil, maddi substansiya hesab edilməlidir. Xüsusilə, Yelizaveta Dekarta 6 may 1643-cü il tarixli məktubunda bu məsələni qabardaraq bir şeyin başqa bir şeyi hərəkətə gətirməsinin, ona təsir etməsinin toxunma hadisəsini, bunun isə fiziki səth tələb etdiyini vurğulayır. [Shapiro, 2007, s.62] Onun fikrincə, nəfs fiziki səthə malik olmadığına görə, onun bədənə təsir etməsini izah etmək mümkün deyil. Dekart və ondan əvvəlki dualist

filosoflar üçün maddi bədən ilə qeyri-maddi nəfsin münasibəti məsələsi paradoksal görünməsə də xüsusilə sonrakı dövrlərdə bu ciddi müzakirə mövzusuna çevrilib dualist düşüncəyə edilən əsas irad kimi önə çıxdı. Zehin fəlsəfəsində bu problem adətən "təzadlı dörtlük" adlandırılan aşağıdakı dörd mülahizə ilə ifadə edilir:

1. Nəfs qeyri-maddi substansiyadır
2. Bədən maddi substansiyadır
3. Nəfs və bədən bir-biri ilə münasibətdədir
4. Maddi və qeyri-maddi şeylərin münasibəti mümkün deyil

Bu məqalə nəfs-bədən probleminin məntiqi mülahizələrlə açıqlaması olan "təzadlı dörtlük" və onun Sədrəddin Şirazi fəlsəfi psixologiyası baxımından həllinə dairdir. Məqalədə ilk olaraq nəfs-bədən problemini ifadə edən dörd mülahizədən bəhs edilir. Sonra isə Sədrəddin Şirazinin nəfs və bədən anlayışı təhlil edilir. Daha sonra isə sözügedən problem Şirazi psixologiyası perspektivindən təhlil edilir.

## *2. "Təzadlı dörtlük"*

Nəfs-bədən problemi ifadəsi ilə əslində çoxsaylı fərqli problemlər qrupuna işarə edilir. Belə ki, bütün nəfs nəzəriyyələri üçün xarakterik olan yeganə bir problem mövcud deyil. Başqa cür desək hər bir nəfs-bədən nəzəriyyəsinin qarşılaşdığı özünə xas bir problem vardır. Burada biz xüsusilə dualist nəfs-bədən nəzəriyyələri üçün xarakterik olan nəfs-bədən problemindən bəhs edəcəyik. Bu problemin ən aydın şəkildə izahı "təzadlı dördlük" adlandırılan məntiqi mülahizələrlə ortaya qoyulur. Bu mülahizələr aşağıdakı kimidir.

1. Nəfs qeyri-maddi substansiyadır
2. Bədən maddi substansiyadır
3. Nəfs və bədən bir-biri ilə münasibətdədir
4. Maddi və qeyri-maddi şeylərin münasibəti mümkün deyil

Keys Kəmpelin [1970] "Bədən və zehin" əsərində təqdim etdiyi bu mülahizələr dualist nəfs nəzəriyyələri üçün xarakterik olan nəfs-bədən problemini aydın şəkildə açıqlayır.

İlk baxışda bu dörd mülahizənin hər biri doğru görünür. Buna baxmayaraq, bütün müqəddimələri eyni anda doğru hesab etmək ziddiyyətə səbəb olur. Məsələn, əgər nəfs qeyri-maddi, bədən isə maddi varlıqdırsa və bu ikisi qarşılıqlı təsirlənə bilirsə, onda bu qarşılıqlı təsiri inkar edən sonuncu müqəddimə yanlış olmalıdır. Yəni birinci, ikinci və üçüncü mülahizələr doğrudursa, dördüncü mülahizə – "maddi və qeyri-maddi şeylərin münasibəti mümkün deyil" – səhvdir. Əksinə, əgər birinci, ikinci və dördüncü mülahizələr doğrudursa, yəni nəfs qeyri-maddi, bədən maddi substansiyadırsa və qeyri-maddi ilə maddi varlıqlar arasında əlaqə mümkün deyilsə, onda nəfsin bədənlə münasibətini təsdiqləyən üçüncü mülahizə yanlış olmalıdır.

Bunlardan başqa daha iki ehtimal da mövcuddur. Bunlar da birinci yaxud ikinci mülahizənin yanlış ola biləcəyi ehtimallarıdır. Belə ki, əgər üç və dördüncü mülahizələr doğrudursa yəni əgər nəfslə bədən bir-biri ilə münasibətdədirsə o halda ki maddi və qeyri maddi şeylərin münasibəti qeyri-mümkündür, o zaman ya nəfs qeyri-maddi yox maddi substansiyadır, ya da bədən maddi yox qeyri-maddidir. Beləliklə, göründüyü kimi hər dörd mülahizəni eyni anda doğru qəbul etmək mümkün deyi, hər bir halda mülahizələrdən biri yanlışdır.

Elə isə problemin həlli nədir? Yaxud, üç doğru mülahizə və ya yanlış olan mülahizə hansıdır? Yuxarıda toxunduğumuz fərqli dualist və monist nəfs nəzəriyyələri arasındakı fərq də bu sualları verdikləri cavablarla əlaqəlidir. Başqa cür desək hər bir nəfs-bədən nəzəriyyəsi yuxarıdakı problemi fərqli şəkildə həll etməyə çalışır.

Şirazinin mənsub olduğu islam fəlsəfəsi perspektivindən problemə yanaşsaq, müsəlman filosofların dördüncü mülahizəni inkar etdiyini deyə bilərik. Dualizmi mənimsəyən klassik dövr islam filosoflarına görə insan iki zidd substansiya olan nəfs və

bədəndən meydana gəlir. Nəfs maddi bədəndən fərli olaraq mücərrəd bir varlıq olub maddi bədənə aid xüsusiyyətlərin əksinə sahibdir. Buna baxmayaraq islam filosoflarına görə bir-birinə zidd xüsusiyyətlərə sahib olmaq nəfslə bədənin qarşılıqlı münasibəti və ya birliyi üçün əngəl təşkil etmir. Yəni müsəlman filosoflar bu iki zidd substansiyanın əlaqəsi problemini problem olaraq görmürdülər. Təsadüfi deyil ki, islam fəlsəfəsindən əvvəl mövcud olan dualist yanaşmalarda da tipik fikir mövcud olmuşdur. Buna baxmayaraq, heç bir substantiv dualist mücərrəd nəfslə maddi bədənin əlaqəsinin mahiyyətini tutarlı şəkildə izah edə bilməmişdir.

Lakin, XVII əsr islam filosofu Sədrəddin Şirazi nəfsin mücərrədliyini qəbul etməklə bərabər, fərqli bir nəfs nəzəriyyəsi irəli sürdü. Ona görə nəfs "yaradılışca cismani, qalışca ruhani" bir varlıqdır. Yəni nəfs yarandığı zaman bədən kimi maddidir. Buna baxmayaraq bu maddi nəfs substantiv hərəkətlə təkamül edərək ruhani substansiyaya çevrilir. Onun nəfs anlayışı kimi bədən anlayışı da fərqlidir. O, bədənin nəfslə eyni varlıq olduğunu düşünərək onların əlaqəsini ayrılmaz olduğunu irəli sürür. Nəfsi bədəndən müstəqil bir varlıq hesab edən və insanın bu iki zidd varlıqdan ibarət mürəkkəb bir varıq sayan islam filosofları ilə müqayisədə Şirazinin nəfs nəzəriyyəsi ciddi fərqliliklər ehtiva edir. O nəfsin mücərrədliyini və varlığının kamil formasına çatdıqdan sonra ölümsüzlüyünü qəbul etməklə dualist görünsə də nəfsi bədənlə eyniləşdirməklə həm də dualizmə qarşı çıxır. Onun bu dinamik nəfs nəzəriyyəsi yuxarıda bəhs etdiyimiz nəfs-bədən probleminə də fərqli perspektivdən baxmaq imkanı yaradır.

Yuxarıdakı təzadlı dördlüyün Şirazi perspektivindən necə həll edildiyini görmək üçün biz ilk növbədə onun nəfs və bədən nəzəriyyəsini daha da yaxından nəzərdən keçirəcəyik.

### *3.Şirazinin nəfs-bədən nəzəriyyəsi*

İslam filosoflarının nəfs nəzəriyyələrinə diqqət etdiyimiz zaman qədim yunan filosofları Aristotel və Platonun təsirini açıq-aşkar görmək mümkündür. Kindi, Fərabi, İbn Sina və İbn Rüşd kimi islam filosoflarının əsərlərinə baxdığımız zaman onların bu iki yunan filosofunun mövzu ilə bağlı fikirlərini sintez etdiklərinin şahidi oluruq. Bunun səbəbi bəzən islam filosoflarının yunan fəlsəfəsini neoplatonist şərhlər yolu ilə öyrənmələri olmuşdur. Bundan başqa, onların sahib olduqları dini inancın da burada həlledici faktor olma ehtimalı vardır.

Belə ki, fəlsəfə tarixindən məlumdur ki, qədim yunan filosofu Platon nəfslə bədən arasında substantiv ayrılığın olduğuna inanırdı. Ona görə nəfs əzəli və əbədi varlıq olduğu üçün bədən təbiətindən tamamilə fərqli bir mahiyyətə sahibdir. Nəfs bədəndən öncə də mövcud olmuşdur, bədəndən sonra da varlığını başqa bədənlərdə davam etdirəcək. Çünki nəfs bədənin ölümünü zəruri edən fiziki qanunlara tabe olmayan qeyri-maddi bir varlıqdır. Platonun xüsusilə "Fedon" [1975] və başqa dialoqlarında təqdim etdiyi bu nəfs anlayışı tələbəsi Aristotel tərəfindən rədd edildi. Nəfsi "orqanlara sahib təbii bədənin ilk mükəmməlliyi (entelexiya)" [Aristotle, 2018] kimi tərif edən Aristotel onu bədəndən müstəqil şəkildə mövcud ola bilən bir varlıq hesab etmirdi. Nəfs-bədən əlaqəsini materiya-forma əlaqəsi kimi izah edən filosofa görə bədənsiz nəfsin varlığından söhbət gedə bilməz.

İslam filosofları isə əsasən nəfsi Aristotel kimi, "orqanlara sahib təbii bədənin ilk mükəmməlliyi (entelexiya)" şəklində tərif etsələr də onu maddədə həkk olunmuş adi bir forma saymayaraq, Platon kimi, bədənsiz də var ola bilən mücərrəd substansiya hesab edirlər. İslam filosofları arasında Aristotelə bağlılığı ilə xüsusilə seçilən İbn Rüşd belə Aristotelin nəfs tərifini nəfsin həqiqi mahiyyətini açıqlayan bir tərif hesab etməyərək bir təsvir hesab edirdi. Ona görə nəfs aktlarını və yetkinliyini aktuallaşdırmaqda bədənə bağlı olsa da nə var olmasında nə də varlığını davam etdirməkdə bədənə bağlı deyil. Beləliklə, bədənin yox olması mücərrəd nəfsin də yoxluğunu zəruri etmir. [Karlığa, 1999, s.262]

Qısaca, islam filosofları nəfsin bilik baxımından kamilləşməsi üçün bədəni gərəkli faktor hesab etsələr də, onun nəfsin varlığı üçün həlledici rol oynadığı fikrini qəbul etmirdilər.

Ümumilikdə Sədrəddin Şirazi də zahirən bənzər fikirlərə sahibdir. O da nəfsin bədənin mükəmməlliyi olmasına dair aristotelçi tərifi qəbul edir. Eyni zamanda, o da nəfsin bədəndən sonra yox olmayıb varlığını davam etdirəcəyi fikrindədir. İslam doktrinalarından bəhrələnən və mistisizmdən ilhamlanan İslam filosofları insan ruhunu bilik əldə etmə və ruhani təcrübə vasitəsilə yüksəlməyə qadir hesab edirdilər. Şirazinin psixologiyası da bu ənənədən kənarda deyil; lakin onun sistemində insan ruhuna kosmik səhnədə, xilasa aparan kamilləşmə prosesində daha dominant bir rol verilir. [Meisami]

Şirazinin nəfs nəzəriyyəsini onun nəfsə dair "yaradılışca cismani, qalışca ruhani" (cismaniyyətul-hudus, ruhaniyyətul-bəqa) tezisində yığcam şəkildə ifadə edilmişdir. Ona görə nəfs digər islam filosoflarının inandığı kimi qeyri-maddi substansiya olaraq yaranmır. Əksinə nəfs varlığının başlanğıcında maddi formadır. Aristotelçi baxışdan – ruhun bədənin forması olması anlayışından – çıxış etsə də, Şirazi insan nəfsinin bədənə bağlılıqdan qurtulmaq gücünə malik olduğunu irəli sürərək İbn Sina kimi bu nəzəriyyədən ayrılır. Bilik genişləndikcə və ruhani inkişaf baş verdikcə, ruh varlığın daha yüksək dərəcələrinə yüksəlir. Rasional insan ruhu biz yetkinliyə çatdıqda aktuallaşır, lakin bu da hələ nəfsin təkamülünün bitməsi mənasına gəlmir. Bu mərhələdə biz əslində insanıq, lakin potensial olaraq mələk və ya şeytan ola bilərik. Nəfsin yaranmasına və sonrakı təkamülünə dair Şirazi "Ərşiyyə"də aşağıdakıları yazır:

"*Varlığının başlanğıcından gedəcəyi son nöqtəyə qədər düşünən nəfs üçün bir çox məqam və dərəcələr vardır. İnsan nəfsi zati varlıq nəşətlərinə və varlıq tərzlərinə sahibdir. O, varlığının başlanğıcında cismani bir cövhərdir. Sonra varlığı addım-addım şiddətlənir və zatı ilə qaim olan varlıq tərzlərini əldə edir. Bu dünyadan axirət aləminə köçür və beləliklə rəbbinə qovuşur. O, yaranışında cismə bağlıdır; varlığını davam etdirməkdə isə ruhanidir. Nəfsin varlığında ilk meydana gələn cismani bir şeydir. Sonra təbiətin forma və mərtəbələrinə uyğun olaraq hiss edən nəfs, sonra düşünən nəfs, sonra xatırlayan nəfs, sonra da danışan nəfsə çevrilir. Praktiki ağıl yarandıqdan sonra potensial ağıl həddindən aktual ağıl və oradan da aktiv ağıl dərəcəsinə yüksələrək nəzəri ağıl olur*". [Şirazi, 2022, s.48]

Şirazinin yuxarıdakı paraqrafda ifadə etdiyi nəfsin maddi varlıqdan ruhani-mücərrəd varlığa təkamülünü mümkün edən "substantiv hərəkət" prinsipidir. Bu nəzəriyyəyə əsasən peripatetik hərəkət anlayışından fərqli olaraq maddi dünyada hərəkətsiz heç bir şey yoxdur. Hərəkət sadəcə aksidensiyalarda mövcud deyil; varlığın özü, substansiyasında da hərəkət vardır. Buna əsasən yarandığında yeganə maddi substansiya olan nəfs və bədən substantiv dəyişikliklər nəticəsində mərhələli olaraq ruhanilik istiqamətində təkamül edir.

Substantiv hərəkət prinsipi əsasında hər bir üstün mərtəbədəki nəfs aşağı mərtəbələrdəki nəfsani gücləri də özündə ehtiva edir. Buna görə insan nəfsi bitki və heyvan mənşəli nəfsləri də öz varlığında daşıyır. İnsan nəfsi ana bətnində döl mərhələsində olduğu müddətdə bitki mənşəli nəfs hesab olunur. Bu mərhələyə isə o, sırf maddi, cansız varlıqlar səviyyəsindən təkamül edərək çatır. Beləliklə, ana bətnindəki insan dölü aktual olaraq bitki mərhələsindədir. Hiss və hərəkət qabiliyyətinə malik olmadığı üçün o, potensial heyvan sayılır. Potensial heyvan olması onun fərqləndirici xüsusiyyəti kimi çıxış edir və onu digər bitki növlərindən ayıraraq ayrıca bir növ halına gətirir. Daha sonra potensial heyvan nəfsi aktuallaşır. Bu baş verdikdə insan nəfsi aktual bəşəri heyvana, potensial olaraq isə nəfsani insana çevrilir. Nəzəri və praktiki ağıl inkişaf etdikdə isə o, aktual nəfsani insan, potensial mələk olur. [Şirazi, 1383, s.156-157]

Şirazi nəfsin yarandığı zaman mücərrədliyini qəbul etməsə də substantiv hərəkətlə mücərrədləşdiyini bildirir. S.Parıldara görə Şirazinin nəfsin qeyri-maddiliyi ilə bağlı anlayışı peripatetiklərinkindən daha güclüdür. Əslində, Şirazinin metafizik dünyagörüşündə

hər şey qeyri-maddidir və materiya, eləcə də həyat kimi maddi səviyyələr yalnız reallığın aşağı mərtəbələridir. Üstəlik, materiya ilə qeyri-maddi olanın ayrılığı artıq vurğulanmır, buna görə də onun mövqeyi neoplatonçuların mövqeyindən də güclüdür. Bu, onun monist psixologiyası ilə əlaqədardır, burada materiya demək olar ki, nəzərə alınmır və ya mücərrədlik içində əridilir. Maddi olan bir substansiya davamlı dəyişmə prosesi vasitəsilə qeyri-maddi substansiyaya çevrilir. Nəticədə, maddilik və qeyri-maddilik eyni substansiyaya aid edilir. [Parıldar, 2020, s.33]

Beləliklə, Şirazinin dinamik nəfs nəzəriyyəsi perspektivindən nəfs-bədən bölgüsü dualizmi təmsil etmir. Onların hər ikisi insan varlığının fərqli mərtəbələrini təşkil edir. Bu o deməkdir ki, ruh və materiya eyni mahiyyətə malikdir, lakin onların arasında yalnız varlıq şiddətində fərq mövcuddur. Dünyada varlıqdan başqa heç nə yoxdur, fərqli varlıq dərəcələri var. Varlıq şiddəti baxımından daha yüksək olan səviyyə də daha aşağı səviyyəyə təsir göstərir. [Kohandel, 2015, s.174] Beləliklə də bütün kainat varlıq sayəsində bir-biri ilə bağlı, bir-birinə qarşılıqlı təsir edən və canlı bir sistem olmuş olur.

### *4.“Təzadlı dördlük” və həlli*

Şirazinin nəfs-bədən anlayışından belə məlum olur ki, nəfslə bədən yeganə ontoloji həqiqət olan insanın fərqli varlıq mərtəbələridir. Bu yeganə ontoloji həqiqət də cismani substansiya kimi yaranaraq substantiv hərəkətlə ruhani substansiyaya çevrilir. Elə isə bu nəfs anlayışı yuxarıda bəhs etdiyimiz dörd təzadlı mülahizəni (nəfs qeyri-maddi substansiyadır; bədən maddi substansiyadır; nəfs və bədən bir-biri ilə münasibətdədir; maddi və qeyri-maddi şeylərin münasibəti mümkün deyil) necə həll edir.

Birinci mülahizəyə gəldikdə qeyd etmək lazımdır ki, “nəfs qeyri-maddi substansiyadır” mülahizəsi Şirazi perspektivindən birmənalı olaraq nə təsdiq nə də inkar edilə bilər. Belə ki, onun “yaradılışca cismani qalışca ruhani” nəfs nəzəriyyəsinə əsasən nəfs yarandığı zaman qeyri-maddi deyil. Nəfs substantiv hərəkətlə düşünən nəfs mərtəbəsinə çatdığı zaman ruhaniləşir.

Şirazi perspektivindən ikinci, “bədən maddi substansiyadır” mülahizəsini də fərqli qiymətləndirmək lazımdır. Ona görə nəfsin həqiqi bədəni cismani ünsürlərdən təşkil olunan bədən deyil. Nəfsin bədəni təbiətindəki fərqli funksiyalar icra etməsini təmin edən güclərdir. Onun bildiyimiz fiziki bədənlə əlaqəsi də bu güclər vasitəsi ilə baş verir. Bu güclər də nəfsin varlıq mərtəbəsinə müvafiq şəkildə onunla eyni mahiyyətdə olur. Əgər nəfs maddi təbiətdirsə gücləri də maddi, ruhani varlıqdırsa təbiətindəki güclər də ruhani mahiyyətə sahib olur. [Kərəcyan & Rudəki, 1389] Yəni, bədən maddi substansiyadır mülahizəsi yalnız maddi mərtəbədəki nəfsin bədəni üçün doğru mülahizədir. Ruhani nəfsin bədəni də ona müvafiq şəkildə ruhani mahiyyətə sahib olur.

Üçüncü mülahizə, “nəfs və bədən bir-biri ilə münasibətdədir” mülahizəsi Şiraziyə görə doğrudur. Ona görə nəfslə bədən nəinki münasibətdədir, hətta yeganə varlıq olan insanın varlığının fərqli mərtəbələridir. Nəfslə bədənin fərqli yalnız varlığın şiddət və zəifliyi baxımındandır.

“Maddi və qeyri-maddi şeylərin münasibəti mümkün deyil” mülahizəsinə gəldikdə, əgər bu mülahizə ilə bir-birinə zidd, müstəqil substansiyalar olan nəfslə bədənin münasibəti və ya birliyi nəzərdə tutulursa Şiraziyə görə doğru mülahizədir. Ona görə ki, Şirazi nəfsin yarandığı zaman bədənlə birləşib yeganə bir növ yaratması üçün maddi forma olmasını zəruri hesab edir. Çünki qeyri-maddi, mücərrəd substansiya olan nəfsin bədənlə birləşməsi ona görə qeyri-mümkündür. *“Ondan (nəfsdən) və bədən maddəsindən cismani, kamil bir növ yaranır. Mücərrəd və maddi olandan maddi olan təbii bir növün yaranması zəruri olaraq mümkün deyil”*. [Şirazi, 1383, s.380]

Buna baxmayaraq Şirazi ümumiyyətlə maddi ilə qeyri-maddinin əlaqəsini inkar etmir. Çünki ona görə insan nəfsi düşünən nəfs mərtəbəsinə çatdığı zaman mücərrədləşir. Bu isə

maddi bədəndə mücərrəd nəfsin varlığı mənasına gəlir. Əgər o, maddiliklə ruhaniliyin bir arada mövcudiyyətini inkar etsəydi, o zaman, maddi təbiət olan canlı insanın mücərrəd nəfsə malik olmasını da inkar etməli idi. Halbuki, bu belə deyil.

Beləliklə, Şirazinin fəlsəfi psixologiyası perspektivindən baxsaq təzadlı dörd mülahizəni bir neçə şəkildə həll edə bilərik. Birinci şəkildə olan həll yolu mücərrədləşməmiş nəfs mərhələsi üçün keçərlidir. Bu mərhələdə birinci mülahizə, nəfsin qeyri-maddiliyi inkar edilir:

1. Nəfs maddi substansiyadır
2. Bədən maddi substansiyadır
3. Nəfs və bədən bir-biri ilə münasibətdədir
4. Maddi və qeyri-maddi şeylərin münasibəti mümkün deyil

İkinci şəkildə olan həll yolu isə mücərrəd varlıq mərtəbəsinə çatmış nəfsə aiddir. Qeyd etdiyimiz kimi, Şiraziyə görə mücərrəd nəfsin bədəni də ona uyğun mahiyyətdə olduğu üçün bu mərhələ üçün ikinci mülahizə, yəni bədənin maddiliyi inkar edilir.

1. Nəfs qeyri-maddi substansiyadır
2. Bədən qeyri-maddi substansiyadır
3. Nəfs və bədən bir-biri ilə münasibətdədir
4. Maddi və qeyri-maddi şeylərin münasibəti mümkün deyil

Qeyd etmək lazımdır ki, ikinci spekulyativ həll variantında nəzərdə tutulan bədən Şirazi psixologiyasına xas mənadadır. Zehin fəlsəfəsində və adi məişət kontekstində bədən deyərkən insanın xarici bədən üzvlərindən ibarət olan maddi struktur nəzərdə tutulur. İnsanın düşünən nəfsi, Şiraziyə görə də, məhz bu bədənlə birlikdə olduğu zaman formalaşır. Belə məlum olur ki, Şirazi düşüncə səviyyəsinə çatmış mücərrəd nəfsin maddi bədənlə münasibətini də problem olaraq görmür. Əgər belədirsə o zaman ona görə dördüncü mülahizə, yəni maddi və qeyri-maddi varlıqların münasibətinin qeyri-mümkün olması doğru deyil. Yəni:

1. Nəfs qeyri-maddi substansiyadır
2. Bədən maddi substansiyadır
3. Nəfs və bədən bir-biri ilə münasibətdədir
4. Maddi və qeyri-maddi şeylərin münasibəti mümkündür

Beləliklə məlum olur ki, Şirazinin "yaradılışca cismani, qalışca ruhani" şəklində ifadə etdiyi dinamik nəfs nəzəriyyəsi baxımından nəfs bədən probleminə fərqli şəkillərdə yanaşmaq mümkündür. Bu da onu göstərir ki, əslində, Sədrəddin Şirazi üçün modern fəlsəfədə nəzərdə tutulan mənada nəfs-bədən problemi mövcud deyil.

### *5.Nəticə*

Nəticə olaraq qeyd etmək olar ki, Sədrəddin Şirazinin maddi bədəndə yaranıb, substantiv hərəkətlə ruh məzmunu qazanan dinamik nəfs nəzəriyyəsi baxımından, məqalədə təqdim olunan təzadlı dördlükdə yer alan mülahizələrin heç biri konkret olaraq inkar edilmir. Nəfs yaranarkən maddi forma olsa da, potensial olaraq ruhanidir və varlığının sonrakı mərhələlərində ruhani varlığını aktuallaşdırır. Bədən də nəfsdən müstəqil bir varlıq olmayıb, onunla eyni ontoloji gerçəkliyi paylaşır. Aralarındakı fərq yalnız varlığın intensivliyi ilə bağlıdır; nəfsin varlığı bədəndən daha intensivdir. Fərqli varlıq dərəcələrinə malik olsalar da, varlıq baxımından birdirlər. Buna görə də, nəfsin varlığının aşağı mərtəbəsi olan bədənlə münasibəti Şirazi psixologiyası baxımından problem yaratmır.

### *6.REFERENCE*

**1.** Aristotle. (2018). *On the Soul: And Other Psychological Works*. Oxford University Press. (In English)
**2.** Campbell, K. (1970). *Body and Mind Problems of philosophy.* Macmillan. (In English)

3. Karligha, B. H. (1999). Averroes. *TDV İslâm Ansiklopedisi*. https://islamansiklopedisi.org.tr/ibn-rusd--torun#1 (In Turkish)
4. Karajyan, M., Rudaki, N. (1389). The Three Realms of the Body: A Comparative Study of Bodily Resurrection from the Perspective of Ṣadr al-Muta'allihīn and Āqā 'Alī Ḥakīm (Mudarris Zunūzī). *Qabasat*, no 58, 85-114. (In Persian)
5. Kohandel, H. (2015). Mind and Body in Mulla Sadra's Philosophy: A Psychological Relationship, *The International Journal of Indian Psychology*, *2*(4), 166-174. (In English)
6. Lagerlund, H. (2007). Introduction: The Mind/Body Problem and Late Medieval Conceptions of the Soul. (Ed. by Lagerlund, H.) *Forming The Mind. Studies in the History of Philosophy of Mind*, vol 5. Springer, Dordrecht. https://doi.org/10.1007/978-1-4020-6084-7_1 (In English)
7. McCulloch, G. (1995). *The Mind and its World*. New York, Routledge. (In English)
8. Meisami, S. "Mulla Sadra (c. 1572-1640)". *Internet Encyclopedia of Philosophy*. URL: https://iep.utm.edu/sadra/ (In English)
9. Parildar, S. (2020). *Intentionality in Mulla Sadra*. Springer Nature Switzerland AG. (In English)
10. Plato. (1975). *Phaedo*. Oxford University Press USA. (In English)
11. Shapiro, L. (2007). *The Correspondence Between Princess Elisabeth of Bohemia and René Descartes*. Chicago, University of Chicago Press. (In English)
12. Shirazi, S. (1383 SH). *The Transcendent theosophy in the Four Journeys of the Intellect.* Vol 8. SIPRIn Publications. (In Arabic)
13. Shirazi, S. (2022). *The Wisdom of the Throne*. (Trans. Feyzi Yigit). Ön söz yayıncılık. (In Turkish)
14. Shirinov, A. (2012). The Problem of the Soul-Body Relationship in the History of Philosophy (From Antiquity to the Present). *Felsefe ve sosial-siyasi elmler*, *1*(33), 36-49. (In Azerbaijani)
15. Westphal, J. (2016) *The Mind-Body Problem.* The MIT Press Essential Knowledge Series. https://doi.org/10.7551/mitpress/10776.001.0001 (In English)

## *ƏDƏBİYYAT*

1. Aristotle. (2018). *On the Soul: And Other Psychological Works*. Oxford University Press
2. Campbell, K. (1970). *Body and Mind*. Macmillan.
3. Karlığa, B. H. (1999). "İbn Rüşd". TDV İslâm Ansiklopedisi. https://islamansiklopedisi.org.tr/ibn-rusd--torun#1
4. Kərəcyan, M., Rudəki, N. (1389). Se iqlime bədən; bərrəsiye moqayeseye məad cesmani əz mənzər Sədrulmutəəllehin və Ağa Əli Həkim (Mudərris Zunuzi), no 58, 85-114.
5. Kohandel, H. (2015). Mind and Body in Mulla Sadra's Philosophy: A Psychological Relationship, *The International Journal of Indian Psychology*, *2*(4), 166-174.
6. Lagerlund, H. (2007). Introduction: The Mind/Body Problem and Late Medieval Conceptions of the Soul. In: Lagerlund, H. (eds) Forming The Mind. Studies in the History of Philosophy of Mind, vol 5. Springer, Dordrecht. https://doi.org/10.1007/978-1-4020-6084-7_1
7. McCulloch, G. (1995). *The Mind and its World*. New York: Routledge.
8. Meisami, S. "Mulla Sadra (c. 1572—1640)". Internet Encyclopedia of Philosophy, – URL: https://iep.utm.edu/sadra/
9. Parıldar, S. (2020). *Intentionality in Mulla Sadra*. Springer Nature Switzerland AG.
10. Plato. (1975). *Phaedo*. Oxford University Press USA.

**11.** Shapiro, L. (2007). *The Correspondence Between Princess Elisabeth of Bohemia and René Descartes*. Chicago: University of Chicago Press.
**12.** Şirazi, S. (1383 h.ş.). *al-Hikmatul-mutaaliya fil-asfaril-aqliyyatil-arbaa*, Vol 8. SIPRIn Publications.
**13.** Şirazi, S. (2022). *Arşa Ait Hikmetler (el-Hikmetül-Arşiyye)*. (Feyzi Yiğit trans.). Ön söz yayıncılık.
**14.** Şirinov, A. (2012). Fəlsəfə tarixində ruh-bədən əlaqəsi problemi (qədimdən günümüzə). *Fəlsəfə və sosial-siyasi elmlər*, *1*(33), 36-49.
**15.** Westphal, J. (2016) *The Mind-Body Problem.* The MIT Press Essential Knowledge Series. https://doi.org/10.7551/mitpress/10776.001.0001